Ölkəmizi tanıyaq

Gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə

Sumqayıt

Sumqayıtın bir qrup məktəblisi "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində keçirilən maarifləndirici tur-aksiyaya qoşulub. Şəhər ümumtəhsil məktəblərinin 40 şagirdindən ibarət qrup noyabrın 11-də Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə yola düşüb.

Sumqayıtdakı Heydər Əliyev Mərkəzinə toplaşan məktəblilər əvvəlcə burada ümummilli liderin büstü önünə tər güllər düzüb, dahi rəhbərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra mərkəzin akt zalında aksiya iştirakçılarının yolasalma mərasimi təşkil edilib.

Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Teymur Səmədov, Milli Məclisin deputatı Tahir Mirkişili, ikinci qrup Qarabağ müharibəsi əlili Sahib Şamilov, ağsaqqallar şurasının sədri Müzəffər Gülümov, valideyn Aytən Gəncəliyeva çıxış ediblər.

Qeyd olunub ki, tur-aksiya ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsində, tədrisdə qazanılan nəzəri biliklərin möhkəmləndirilməsində mühüm amillərdən biri olacaq və səfərin xoş təəssüratları şagirdlərin mənəvi zənginliyini daha da artıracaq. Bildirilib ki, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin başlıca məqsədi gənc nəslin vətənə məhəbbət ruhunda tərbiyə olunmasıdır. "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalar da məhz bu amala xidmət edir.

"İstedad" liseyinin X sinif şagirdi, aksiya iştirakçısı Nicat Alxanov böyük həvəslə səyahətə hazırlaşdığını, maraqlı təəssüratların astanasında olduğunu bildirib. O, belə bir tur-aksiyanın təşkilinə görə Prezident İlham Əliyevə məktəblilər adından minnətdarlığını ifadə edib.

Tur-aksiya iştirakçıları dörd gün ərzində Gəncə şəhərində Cavadxan məqbərəsi, Cümə məscidi, Şah Abbas məscidi, Çökək hamam, Xan bağı, Qədim Qala divarları, "İmamzadə" kompleksi, Comərd Qəssab türbəsi, Nizami Gəncəvinin məqbərəsi, Amfiteatr, Nizami Gəncəvi adına mərkəz və Gəncə Avtomobil zavoduna, Şəmkir rayonunda "Orta əsr Şəmkir şəhəri", "Abidələr" parkı, Alman kilsəsi, "İstiqlal" parkı və "Nəfis çörək zavodu"na, Göygöl rayonunda Alman kirxası, sonuncu alman Viktor Klaynın ev-muzeyinə baxış keçirəcək, Hacıkənd qəsəbəsinə və Göygöl Milli Parkına ekskursiya edəcəklər.

Ekskursiyaya yola düşən şagirdlərin əhvali-ruhiyyəsi olduqca yüksək idi. Məktəbliləri 4 müəllim və 1 həkim müşayiət edir. Xüsusi gəyimdə olan tur-aksiya iştirakçılarını aparan avtobus Gəncə istiqamətində yola düşüb.

Astara

Noyabrın 11-də tur-aksiyanın "Astara-Gəncə-Şəmkir-Göygöl-Astara" marşrutunun iştirakçılarını yola salmaq üçün rayon icra hakimiyyətinin, təhsil şöbəsinin məsul işçiləri və valideynlər Heydər Əliyev Parkına toplaşmışdılar.

Yolasalma mərasimində çıxış edən Astara Rayon İcra Hakimiyyəti başçısının müavini Yasəmən Rəsulova, valideynlər və şəhər sakinləri məktəblilərə yaxşı yol arzulayaraq ölkəmizi daha yaxından tanımaq üçün məktəblilərə yaradılan şəraitə görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını bildiriblər.

Qrupun rəhbəri Elşad Axundov söhbət zamanı dedi: "Ölkə başçısının təşəbbüsü ilə dövlət səviyyəsində keçirilən tur-aksiyanın iştirakçıları - Astara rayonunun ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri və onların müəllimləri bu gün Gəncə şəhərinə yola düşürlər. Dörd gün davam edəcək aksiyanın iştirakçıları Gəncənin, Şəmkir və Göygöl rayonlarının tarixi abidələri, görməli yerləri ilə yaxından tanış olacaqlar. Məktəblilər Gəncə şəhərinin tarixi məkanlarına - Cavadxan məqbərəsi, Cümə məscidi, Şah Abbas məscidi, Çökək hamam, Xan bağı, Qədim Qala divarları, "İmamzadə" kompleksi, Comərd Qəssab türbəsi və Nizami Gəncəvi məqbərəsinə ekskursiya edəcək, Şəmkir rayonunda "Orta əsr Şəmkir şəhəri", "Abidələr" parkı, Alman kilsəsi, Göygöl rayonunda Alman kirxası, sonuncu alman Viktor Klaynın ev-muzeyi ilə tanış olacaq, Hacıkənd qəsəbəsinə və Göygöl Milli Parkına səfər edəcəklər".

Astara şəhər sakini Novruz Hacızadə iki qızını - şəhər 2 nömrəli tam orta məktəbin XI sinif şagirdi Fidan və IX sinif şagirdi Fatimə Hacızadəni yola salırdı.

Fidan Hacızadə dedi: "Azərbaycanın tarixi, onun mədəniyyət abidələri ilə əyani tanışlıq hamımızın ürəyindəndir. Gəncə şəhəri, Şəmkir və Göygöl rayonlarının qədim tarixi, adət və ənənələri, mədəniyyət və incəsənəti bütün dünyada məşhurdur. Bütün bunları görmək bizə də nəsib olacaq. Məktəblilər üçün bu imkanı yaradan Azərbaycan Prezidentinə "Çox sağ olun!" deyirik".

"Ölkəmizi tanıyaq" tur-aksiyasının digər iştirakçısı - Şahağac kənd tam orta məktəbinin IX sinif şagirdi Şahmar Bəhrəmovun da sevincinin həddi-hüdudu yox idi.

Sonra Astara-Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə aksiya iştirakçılarını Gəncəyə aparan avtobus yola düşdü.

Həmin gün Lənkəran, Lerik, Masallı və Yardımlı rayonlarının məktəbliləri də "Gəncə-Göygöl-Şəmkir" istiqaməti üzrə ölkəmizin qərb bölgəsinə səyahətə başlayıblar.

Tur-aksiyanın iştirakçılarını şəhər və rayon icra hakimiyyətinin məsul işçiləri, müəllimlər, valideynlər və ictimaiyyətin nümayəndələri yola salıblar.

Tərtər

Noyabrın 11-də Tərtər şəhərində rayon rəhbərliyinin, təhsil işçilərinin və valideynlərin iştirakı ilə məktəblilərin bir qrupunun yola salınması mərasimi keçirilib.

Şagirdlər Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar. Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək ölkəmizdə gənc nəslin hərtərəfli inkişafı üçün yaradılan şəraitdən danışıb, dövlət başçısının tapşırığına əsasən təşkil olunan aksiyanı məktəblilərin dünyagörüşünün formalaşmasında mühüm rol oynadığını bildirib. O, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın, o cümlədən bölgələrin dinamik sosial-iqtisadi inkişafı barədə geniş məlumat verərək tur-aksiya iştirakçılarına getdikləri şəhər və rayonlar haqqında geniş bilgilər əldə etməyi, yeni dostlar tapmağı tövsiyə edib və mənalı istirahət arzulayıb.

M.Məmmədov Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın ölkəmizdə təhsil, səhiyyə, mədəniyyət və idmanın inkişafına göstərdikləri diqqət və qayğıdan, gənclərin vətənpərvərlik tərbiyəsindən də bəhs edib, 2016-cı ilin aprel döyüşlərində ordumuzun uğurları, "Böyük qayıdış"ın ilk müjdəsi olan Cocuq Mərcanlı kəndinin yenidən qurulması barədə söhbət açıb.

Qrupun rəhbəri Tunarə Məmmədzadə deyib: "Bu gün cəbhə bölgəsində yaşayan tərtərli məktəblilər Quba, Qusar, Xaçmaz rayonlarına yola düşürlər. Gözəl təbiəti, tarixi abidələri və multikultural ənənələri ilə seçilən bu bölgə ilə tanışlıq şagirdlərdə yüksək təəssüratlar yaradacaq, dünyagörüşlərinin formalaşmasında mühüm rol oynayacaq. İnanıram ki, məktəblilər səfərdən xoş xatirələrlə qayıdacaqlar".

Umudlu kənd tam orta məktəbin şagirdi Günay Qasımzadə tur-aksiyada iştirak etdiyinə görə çox sevindiyini bildirib: "Ölkəmizin şimal bölgəsi haqqında xeyli məlumatım var. Tur-aksiya bu bölgəni daha yaxından tanımağımıza imkan yaradacaq".

Tur-aksiya iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra onlar üçün ayrılmış xüsusi avtobuslarla respublikamızın şimal bölgəsinə yola düşüblər.

Bərdə

Rayon İcra Hakimiyyətində tur-aksiyada iştirak edən məktəblilər və onların valideynləri ilə görüş keçirilib.

Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev ənənə halını almış tur-aksiyaların əhəmiyyətini qeyd edərək respublikamızda gedən sosial-iqtisadi inkişafdan, ölkəmizin bölgələrinin gündən-günə gözəlləşməsindən danışıb. Əmin olduğunu bildirib ki, məktəblilər getdikləri yerlər haqqında geniş bilgilər əldə edəcəklər.

Noyabrın 11-də Bərdə rayonunun mərkəzi meydanında rayonun rəhbər işçiləri, müəllim və valideynlərin iştirakı ilə məktəblilər Quba-Qusar-Xaçmaz marşrutu üzrə yola salınıb.

Bərdə Rayon İcra Hakimiyyəti başçısının müavini, Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Fəqət Şadlinskaya və təhsil şöbəsinin müdiri Rzaqulu Şərifov çıxış edərək şagirdlərə tur-aksiya barədə geniş məlumat veriblər. Bildirilib ki, layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yenilənən siması barədə gənclərdə əyani təəvvür yaratmaqdır.

Diqqətə çatdırılıb ki, ötən müddətdə ildə iki dəfə olmaqla 7 istiqamət üzrə 7 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda indiyədək 13 min 648 məktəbli iştirak edib. Bu il noyabrın 11-14 və 16-19 tarixlərini əhatə edəcək növbəti 8-ci tur-aksiyaya isə 4 istiqamət üzrə 76 şəhər və rayondan 3213 nəfər cəlb olunub. Müəllim və valideynlər məktəblilərə səfərlə bağlı tövsiyələrini veriblər. Şagirdlər ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad edib, onlar üçün ayrılmış avtobuslara əyləşərək yola düşüblər.

Ağdam

Rayonun məktəbliləri "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində təşkil olunmuş maarifləndirici tur-aksiyasına Quzanlı qəsəbəsindən yola salınıblar. Heydər Əliyev Mərkəzinin qarşısında keçirilən yolasalma mərasimində rayon ictimaiyyətinin nümayəndələri, müəllimlər və valideynlər iştirak ediblər.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov çıxış edərək Prezident İlham Əliyevin tapşırığına əsasən təşkil olunan aksiyanın əhəmiyyətindən danışıb, şagirdlərə səfərlərinin çox maraqlı keçəcəyini, tur-aksiyadan çox şey öyrənəcəklərini deyib. Bildirilib ki, Quba-Qusar-Xaçmaz bölgəsi də son illər sürətlə inkişaf edib, xüsusən turizmin inkişafı istiqamətində çox böyük işlər görülüb. Bu bölgə həm də tarixi məkanları ilə tanınır. Odur ki, hər bir şagird onlar üçün yaradılan bu şəraitdən istifadə etməli, getdikləri bölgənin özünəməxsus xüsusiyyətləri, tarixi abidələri, adət-ənənələri, təbiəti, coğrafiyası, müasir inkişafı barədə geniş bilgilər əldə etməyə çalışmalıdır.

Övladını yola salmağa gələn valideyn Mehman Haqverdiyev tur-aksiyadan məmnunluğunu belə ifadə edib: "Bir valideyn kimi, mənim də istəyim övladımın bilikli, dünyagörüşlü olmasıdır. Bu tur-aksiya məktəblilərə vətəni gəzmək, doğma diyarın hər bir guşəsini tanımaq, biliklərini artırmaq imkanı yaradır. Tur-aksiyanın təşkilatçılarına, ilk növbədə isə gənc nəslə həmişə diqqət və qayğı göstərən Prezidentimizə minnətdaram".

Məktəblilər ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra şimal bölgəsi istiqamətində yola düşüblər.

Ağcabədi

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyaya qoşulan Ağcabədi məktəblilərinin də Quba-Qusar-Xaçmaz marşrutu üzrə ekskursiyası başlayıb.

Məktəblilərlə keçirilən görüşdə Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov və Milli Məclisin deputatı Tahir Rzayev çıxış edərək layihənin yeniyetmə və gənclərin dünyagörüşünün formalaşmasında, vətənpərvərlik tərbiyəsinin daha da yüksəldilməsində mühüm rol oynadığını vurğulayıblar. Qeyd edilib ki, tur-aksiyanın başlıca məqsədi məktəblilərə ölkəmizi daha yaxından tanıtmaq, Azərbaycan tarixini, mədəniyyətini, ayrı-ayrı bölgələrin adət-ənənələrini dərindən öyrətmək və gənclərdə milli-mənəvi dəyərlərə hörmət aşılamaqdır.

Diqqətə çatdırılıb ki, məktəbliləri 4 gün ərzində ölkəmizin şimal rayonlarında çox maraqlı ekskursiyalar gözləyir. Onlar Quba rayonunda Cümə məscidi, Soyqırımı Memorial kompleksi, Xalçaçılıq emalatxanası, Tağlı Körpü, Qolf meydançası ilə tanış olacaq, Qırmızı qəsəbəyə, Xınalıq yolundakı şələləyə, Qusar rayonunun Həzrə kəndindəki "Şeyx Cüneyd" türbəsinə və "Şahdağ" Qış-Yay Turizm Kompleksinə, Xaçmaz rayonunda isə Xalça və Şəxsiyyətlər muzeyinə, Çənlibel parkına ekskursiya edəcəklər.

Ağcabədi şəhərinin mərkəzi meydanında keçirilən yolasalma mərasimində rayon icra hakimiyyətinin, təhsil şöbəsinin işçiləri və valideynlər məktəblilərə tövsiyələrini verib, "yaxşı yol" arzulayıblar.

Beyləqan

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasına qoşulan beyləqanlı məktəblilərlə görüş Heydər Əliyev Mərkəzində olub. Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev gənclərin dünyagörüşünü daha da zənginləşdirmək, onlara vətənimizi daha yaxından tanıtmaq məqsədilə keçirilən tur-aksiyanın əhəmiyyətindən danışıb, məktəbliləri bu imkandan səmərəli istifadə etməyə səsləyib.

Diqqətə çatdırılıb ki, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin başlıca məqsədlərindən biri gənc nəslin vətənə məhəbbət ruhunda tərbiyə olunmasıdır. "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalar da məhz bu amala xidmət edir. Azərbaycanın regionları ilə tanışlıq məktəblilərin dünyagörüşünü daha da zənginləşdirir, onlarda vətənpərvərlik ruhunu gücləndirir.

Tur-aksiya iştirakçıları Heydər Əliyev Mərkəzində eksponatlarla tanış olub, ümummilli liderin abidəsi önünə gül dəstələri qoyub, sonra onlar üçün ayrılmış avtobusla Quba-Qusar-Xaçmaz istiqamətində yola çıxıblar.

Sabirabad

Noyabrın 11-də şəhər saatlarında Sabirabad şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısındakı meydanda böyük canlanma vardı. Rayon icra hakimiyyəti və təhsil şöbəsinin məsul işçiləri, valideynlər "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının Qəbələ-Şəki-Zaqatala marşrutunun iştirakçıları olan sabirabadlı şagirdləri yola salırdılar.

Yola düşməzdən əvvəl aksiya iştirakçıları Heydər Əliyev Mərkəzindəki eksponatlarla tanış olublar.

Sabirabad şəhər 4 nömrəli tam orta məktəbin IX sinif şagirdi Emin Tağızadə sevincini bölüşərək deyib: "Tur-aksiyada iştirak edəcəyimi eşidəndə çox sevindim. Azərbaycanın regionlarını gəzmək, şəhər və rayonların tarixi yerləri, mədəniyyət abidələri ilə tanış olmaq çoxdankı arzum idi. Artıq bu istəyim reallığa çevrilib. Tur-aksiyalar məktəblilərə ölkəmizi, onun bu gününü və keçmişini daha dərindən öyrənmək imkanı verir. Bizə bu imkanı yaradan Prezidentimizə minnətdaram".

Qaratəpə kənd tam orta məktəbinin X sinif şagirdi Nailə Səfərli söhbətə qoşularaq fikirlərini belə ifadə edib: "Bu gün Azərbaycanın dilbər guşələrindən olan Qəbələ, Şəki və Zaqatala rayonlarına yola düşürük. Sevincimiz hədsizdir. Ölkəmizin qədim tarixi, mədəniyyəti və incəsənəti barədə çox oxumuşam. Bu gün isə mənə bütün bunları görmək imkanı yaradılıb".

Sonda Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə tur-aksiyada iştirak edən sabirabadlı məktəblilər yola düşüblər.

Saatlı

Noyabrın 11-də "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində təşkil olunmuş tur-aksiyanın Saatlı rayonundan olan iştirakçıları - IX və XI sinif şagirdləri və onları müşayiət edən müəllimlər Qəbələ-Şəki-Zaqatala marşrutu ilə şimal-qərb bölgəsinə yola çıxıblar.

İştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər. Sonra şagirdlər rayondakı Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və fəaliyyətinin ayrı-ayrı məqamlarını əks etdirən fotoşəkil və sənədlərlə tanış olublar.

Qrup rəhbəri, rayon icra hakimiyyətinin əməkdaşı Rauf Qasımov deyib: "Səkkizinci dəfədir ölkəmizdə məktəblilər üçün belə bir aksiya təşkil edilir. Maarifləndirici tur-aksiya təkcə regionlarla tanışlıq məqsədi daşımır. Səfər zamanı şagird və müəllimlər müxtəlif maraqlı tədbirlərdə iştirak etmək imkanı da əldə edəcəklər".

Tur-aksiyanın digər iştirakçıları - Hacıqasımlı kənd tam orta məktəbinin müəllimi Aynur Qarayeva, şəhər 4 nömrəli tam orta məktəbin X sinif şagirdi Sahib Qəhrəmanov və başqaları bu səyahətin təşkilindən razılıqlarını bildirib, şagirdlərin zəngin təəssüratla qayıdacaqlarına əmin olduqlarını vurğulayıblar.

Valideyn Eldost Ağayev ürək sözlərini belə ifadə edib: "Dövlət başçısı gələcəyimiz olan uşaqlara xüsusi qayğı göstərir. Hər yerdə yeni məktəblər, uşaq bağçaları, idman kompleksləri tikilib istifadəyə verilir. Bu tur-aksiya həmin qayğının daha bir təzahürüdür. Övladımın da bu aksiyada iştirak etməsindən çox məmnunam".

Sonra məktəblilər xüsusi avtobusla yola salınıb.

Saatlıdan olan 40 məktəbli və 5 müəllim dörd gün ərzində Qəbələ-Şəki-Zaqatala rayonlarını gəzəcək, bu məkanlarla yaxından tanış olacaqlar.

Hacıqabul

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən tur-aksiyaya qoşulan məktəblilər arasında Hacıqabul rayonunun təmsilçiləri də var. Rayonun ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri və onları müşayiət edən müəllimlər Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya yollanıblar.

Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər. Sonra məktəblilər Heydər Əliyev Mərkəzində ümummilli liderin həyat və fəaliyyətini əks etdirən fotoşəkil və sənədlərlə tanış olublar.

Rayon icra hakimiyyəti və təhsil şöbəsinin məsul işçiləri, valideynlər 40 şagird və 5 nəzarətçi müəllimdən ibarət olan qrupu icra hakimiyyətinin binası qarşısındakı meydandan yola salıblar.

Qrupun rəhbəri Eldar Mahmudov bildirib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən tur-aksiyanın iştirakçıları dörd gün ərzində Qəbələ, Şəki və Zaqatalanın görməli yerləri ilə tanış olacaq, dünyagörüşlərini artıracaqlar.

Hacıqabul Rayon Təhsil Şöbəsinin məsləhətçisi Loğman Səmədov isə deyib ki, tur-aksiya təkcə regionlarla tanışlıq məqsədi daşımır, həm də səfər zamanı şagirdlər və müəllimlər təcrübə mübadiləsi etmək imkanı da qazanacaqlar.

Tur-aksiyanın iştirakçısı, dərs əlaçısı, Hacıqabul şəhər 8 nömrəli tam orta məktəbin IX sinif şagirdi Aytac Əliyeva sevincini belə ifadə edib: "Bizi maraqlı ekskursiya gözləyir. Qəbələ, Şəki və Zaqatala rayonlarının qədim tarixi, adət-ənənələri, mədəniyyəti ilə tanış olmaq imkanı yaratdığı üçün dövlət başçısına minnətdarlığımızı bildiririk. Azərbaycanın dilbər guşələrinə səyahət etmək çoxdankı arzum idi".

Sonra məktəblilər onlar üçün ayrılmış avtobusla Qəbələyə yola düşüblər.

Biləsuvar

Maarifləndirici tur-aksiyada iştirak edən biləsuvarlı məktəblilər də Qəbələ-Şəki-Zaqatala marşrutu istiqamətində yola düşüblər.

Yolasalma mərasimində rayon rəhbərliyi, müəllim və valideynlər iştirak ediblər.

Tur-aksiya iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsini ehtiramla anıblar.

Qrupun rəhbəri, rayon icra hakimiyyətinin əməkdaşı Səbinə Hüseynzadə bildirib ki, "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası gənclərə dövlət qayğısının təzahürüdür. Maarifləndirici tur-aksiya təkcə regionlarla tanışlıq məqsədi daşımır. Səfər zamanı şagirdlər müxtəlif maraqlı tədbirlərdə iştirak etmək imkanı da əldə edəcəklər.

Mərasim başa çatdıqdan sonra biləsuvarlı məktəblilər xüsusi avtobusla yola salınıblar.

Naftalan

Şəhər ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində Quba-Qusar-Xaçmaz marşrutu üzrə yolasalma mərasimi keçirilib.

Naftalan Şəhər İcra Hakimiyyəti başçısının müavini Arzu Məmmədov mərasimdə çıxış edərək Prezident İlham Əliyevin tövsiyəsinə əsasən həyata keçirilən bu cür tur-aksiyaların ənənəvi hal aldığını qeyd edib. Bildirilib ki, layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etməkdir.

Tədbirdə çıxış edən müəllim və valideynlər məktəblilərə səfərlə bağlı tövsiyələrini verib, onlara mənalı istirahət, zəngin təəssürat arzulayıblar.

Tur-aksiya iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra xüsusi avtobusla yola düşüblər.

Qubadlı

"Ölkəmizi tanıyaq" devizi altında keçirilən tur-aksiyaların növbəti mərhələsinə Qubadlı rayonundan olan məktəblilər də qoşulub.

Bu münasibətlə Sumqayıt şəhərində yerləşən Qubadlı Rayon İcra Hakimiyyəti binasının önündə təşkil olunan yolasalma mərasimində rayon rəhbərliyi, təhsil işçiləri və valideynlər iştirak ediblər.

Tur-aksiyaya qoşulanlar əvvəlcə icra hakimiyyətinin inzibati binasının foyesindəki ümummilli lider Heydər Əliyevin büstünü ziyarət edib, önünə tər güllər düzüblər.

Rayon icra hakimiyyəti başçısının müavini Xoşqədəm Alıyeva məktəblilərlə söhbət zamanı bildirib ki, dövlət başçısının tapşırığına əsasən həyata keçirilən tur-aksiya gənclərin vətənpərvərlik, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunmasına, məktəblilərin dünyagörüşlərinin daha da zənginləşməsinə xidmət edir.

Dörd gün ərzində Quba, Qusar və Xaçmazın tarixi məkanlarına, muzeylərinə ekskursiyanı səbirsizliklə gözləyən məktəblilər ölkəmizin şimal bölgəsi haqqında dolğun məlumat alacaq, yeni dostlar qazanacaqlar.

Tur-aksiya iştirakçıları onlar üçün yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Sonra məktəblilər xüsusi avtobusla şimal bölgəsinə yolla düşüblər.

AZƏRTAC